**UOT: 94**
https://doi.org/10.59849/2409-4838.2025.4.76

# KƏŞMİR PROBLEMİ ÇİN-HİNDİSTAN-PAKİSTAN ÜÇBUCAĞI KONTEKSTİNDƏ (1962-1976-CI İLLƏR)

**Sabir Nadir oğlu Əhmədov**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
sabir.ahmadov@bsu.edu.az

*Məqalədə 1962-1976-cı illərdə Kəşmir probleminin Çin-Hindistan-Pakistan üçbucağı münasibətlərində yeri və rolundan bəhs edilir. 1947-ci ilin avqustunda Britaniya Hindistanı parçalandı. Onun tərkibində olan hər bir knyazlığa Pakistan, yoxsa Hindistanın tərkibinə daxil olmaları ilə bağlı sərbəst seçim hüququ verildi. Digərlərindən fərqli olaraq Kəşmir knyazlığı seçim etməkdə bir sıra çətinliklərlə üzləşdi. Belə ki, əhalisinin mütləq əksəriyyətinin müsəlman olmasına baxmayaraq, Kəşmir knyazlığı XIX əsrin ikinci yarısından başlayaraq hindlilər tərəfindən idarə edilmişdir. Bu cür siyasi şəraitin nəticəsində knyazlığın əhalisi arasında dini zəmində münaqişələr baş verdi. Bu münaqişənin zirvə nöqtəsi olaraq 1947-ci ilin oktyabr ayında Hindistan ilə Pakistan arasında Kəşmir uğrunda müharibə baş verdi.*

*İlkin illərdə Kəşmir problemi yalnız Hindistan və Pakistan ilə məhdudlaşan ikitərəfli mübahisə olmuşdu. Lakin, XX əsrin 50-ci illərinin sonlarında başda Çin, ABŞ və SSRİ olmaqla xarici qüvvələr bu məsələnin fəal iştirakçılarına çevrildilər. Digər dövlətlərlə müqayisədə Cənubi Asiyada daha çox maraqlara malik olan Çin Xalq Respublikası (ÇXR) XX əsrin 50-ci illərinin sonlarından etibarən Kəşmir məsələsinə xüsusi diqqət verməyə başladı. Özünün regional nüfuzunu təmin etmək məqsədilə Çin Kəşmirin şimal-şərqində yerləşən Aksay-Çin ərazilərində gizli şəkildə şose yolunun tikintisinə başladı. Bu, Hindistanın narazılığına və 1962-ci ildə iki dövlət arasında müharibənin baş verməsinə səbəb oldu. Müharibənin nəticəsində Çin Kəşmirin şimal-şərq ərazilərini ələ keçirməklə yanaşı, həmçinin Pakistanın qismində yeni müttəfiq qazanmış oldu. Bu proseslər XX əsrin 60-70-ci illərində Cənubi Asiyadakı gərginliyin daha da artmasına və ÇXR-in Kəşmir probleminin iştirakçı dövlətlərindən birinə çevrilməsinə səbəb oldu.*

***Açar sözlər:*** *Çin, Hindistan, Pakistan, Kəşmir, Cənubi Asiya, Aksay-Çin, xarici siyasət*

## GİRİŞ

1949-cu ilin oktyabrın 1-də Çin Xalq Respublikasının (ÇXR) yaradıldığı elan edildikdən sonra Kommunist hökümətinin qarşısında duran ilkin vəzifə tarixi Çin ərazilərinin bərpa edilməsi olmuşdur. Bu ərazilərə Tibet, Tayvan, Honkonq və Makau daxil idi. İlkin illərdə əsas diqqətin bu məsələlərin həllinə yönəldiyi üçün Çin höküməti regionda baş verən proseslərə, o cümlədən Kəşmir probleminə münasibət bildirə bilməmişdi. Yalnız 1951-ci ildə Tibetin ÇXR tərəfindən ilhaq edilməsindən sonra Çinin xarici siyasət məsələlərinə diqqəti artmağa başladı. Belə ki, Tibetin ÇXR-in tərkibinə daxil edilməsi ilə Çin Cənubi Asiya və həmçinin Kəşmir ilə ortaq sərhəd xətti əldə etmiş oldu. Bu zaman regional prosesləri nəzərə alaraq Çin höküməti Kəşmir məsələsində bitərəf mövqe tutmağa üstünlük verdi. ÇXR rəhbərliyinin problemdə belə mövqe tutmasına Hindistan hökümətinin Çinə olan münasibəti də təsir göstərmişdi. Belə ki, Tibetin ilhaq edilməsindən narazı olmasına baxmayaraq, Hindistan rəhbərliyi bir tərəfdən Pakistan, digər tərəfdən isə Çin ilə müharibə aparmağın qeyri-mümkünlüyünü anlamış və bu səbəbdən Tibet məsələsində güzəştə getmək məcburiyyətində qalmışdı.

XX əsrin 50-ci illərində Pakistan rəhbərliyinin qərbyönümlü siyasətinə əks olaraq Hindistanın Baş naziri Cəvahirləl Nehru “qoşulmama” siyasətini yürütmüşdür. Bu siyasətə uyğun olaraq Hindistan XX əsrin 50-60-cı illərində heç bir regional bloka qoşulmadı. Hindistan rəhbərliyinin “qoşulma-

ma" siyasəti və Tibet məsələsində güzəştə getməsi nəticəsində 50-ci illərin əvvəllərində Çin-Hindistan münasibətlərinin normallaşması üçün əlverişli şərait yarandı. Buna görə də, XX əsrin 50-ci illəri Çin-Hindistan münasibətlərinin "çiçəklənmə" dövrü hesab edilə bilər. Hətta iki dövlət arasında dostluq əlaqələrinin inkişafı ilə bağlı Hindistanda "*Hindi-Chini bhai bhai*" (tərcümə: Çin ilə Hindistan qardaşdılar) ifadəsi istifadə edilmişdir. Lakin bu "qardaşlıq" uzun çəkmədi.

XX əsrin 50-ci illərinin sonlarında Çin ilə Hindistan arasında ərazi mübahisələri meydana çıxmağa başladı. Bu mübahisələrin mərkəzi Kəşmirin şimal-şərqində yerləşən Aksay-Çin ərazisi olmuşdur. Belə ki, 1951-ci il ilhaqından sonra Tibetin Çinin digər əraziləri ilə inteqrasiya edilməsi üçün şose yollarının inşasına başlanıldı. Bu yollardan biri Aksay-Çin ərazisindən keçərək Sincyan-Uyğur vilayətini Tibet ilə əlaqələndirən "G219" şose yolu olmuşdur. Yolun tikintisi Hindistanın beynəlxalq səviyyədə tanınmış ərazilərində aparılsa da, Hindistan hökümətinə bununla bağlı heç bir məlumat verilməmişdir. Tikinti işləri 1957-ci ilin sentyabr ayında tamamlanmış və dərhal sonra yol istifadəyə verilmişdir. Hindistan rəsmilərinə isə Aksay-Çində yolun mövcud olması barədə məlumat yalnız 1958-ci ildə verildi. Bu, Çin ilə Hindistan arasında münasibətlərin soyumasına və tərəflər arasında sərhəd xətti boyunca silahlı münaqişələrin başlamasına səbəb oldu.

## ƏSAS HİSSƏ

### Loncu kəndi yaxınlığında silahlı münaqişə və 1960-cı il danışıqları

Çin ilə Hindistan arasında münasibətlərin gərginləşməsi fonunda 1959-cu ildə Tibetdə üsyan baş verdi. Üsyan zamanı Tibetin dini və siyasi lideri Dalay Lamanın Hindistana qaçması Çin-Hindistan sərhəd xəttindəki gərginliyi daha da artırdı. Tibet hadisələrinin baş verməsində C.Nehru hökuməti və ABŞ hakim dairələrini günahlandıran Çin rəhbərliyi Hindistana qarşı ərazi iddiaları irəli sürməyə başladı [8, s. 273]. Bununla Çin-Hindistan münasibətlərində bir müddətlik arxa plana keçmiş ərazi mübahisələri məsələsi XX əsrin 50-ci illərinin sonunda yenidən aktuallaşdı. İki dövlət arasında ərazi mübahisələrinin daha çox gərgin olduğu ərazilər Qərb sərhəd sektorunda yerləşən Aksay-Çin və Şərq sərhəd sektorunda yerləşən və sonradan Arunaçal-Pradeş (Cənubi Tibet) adlandırılan Şimal-Şərq Sərhəd Agentliyi (North-East Frontier Agency - NEFA) əraziləri olmuşdur (Şəkil 1).




**Şəkil 1.** Mak-Maqon xətti və NEFA əraziləri 1959-cu ildə

Çinin Aksay-Çin ərazilərində yol tikməsinə cavab olaraq, C.Nehru tərəfindən "Forward Policy" (tərcümə: irəliləmə siyasəti) təqdim edildi. Bu siyasətə uyğun olaraq Hindistan qoşunları Şərq sektorunda yerləşən və Çin-Hindistan sərhəddini müəyyən edən Mak-Maqon xəttinindən şimaldakı ərazilərə daxil olmağa başladı. Hindistan hərbi qüvvələrinin Çin ərazilərinə müdaxiləsi 1959-cu ilin avqustunda ÇXR ilə Hindistan arasında Loncu kəndi yaxınlığında silahlı münaqişə ilə nəticələndi. Hindistan qoşunlarının sərhəd xəttini kobudcasına pozmasına cavab olaraq, Çin hərbi dəstələri 1959-cu ilin avqustun 25-də Loncu kəndi istiqamətində hücuma keçdilər [12, s. 107]. Münaqişənin qısamüddətli olmasına baxmayaraq, bu, Çin-Hindistan münasibətlərindəki gərginliyin daha da artmasına səbəb oldu. Bununla yanaşı, Çinin 1950-ci il Çin-SSRİ ittifaq müqaviləsinin şərtlərinə uyğun olaraq Hindistana qarşı apardığı hərbi əməliyyatlar haqqında Sovet rəhbərliyini əvvəlcədən xəbərdar etməməsi Çin-Sovet münasibətlərinin soyumasına da təsir göstərdi. Sosialist bloku daxilində parçalanma özünü 1962-ci il müharibəsi zamanı daha açıq şəkildə büruzə verdi. Müharibə zamanı SSRİ rəsmi şəkildə Hindistanı dəstəklədi.

Loncu kəndi yaxınlığındakı silahlı toqquşmadan dərhal sonra Cou Enlay tərəfindən C.Nehruya iki Baş nazir arasında görüşün keçirilməsi və sərhəd məsələlərinin müzakirə edilməsi barədə təklif göndərildi. Cou Enlay görüşün "bitərəf" Birma ərazilərində və ya Çinin paytaxtında keçirilməsini təklif etdi. Bu yolla Çin hökuməti Pekinin baş vermiş hadisələrə görə məsuliyyət daşımadığına işarə etmiş olurdu. Buna cavab olaraq, C.Nehru görüşün Pekində deyil, Dehlidə keçirilməsini tələb etdi. Bu zaman Çin-Sovet əlaqələrinin soyumaqda davam etməsini nəzərə alaraq Çin rəhbərliyi görüşün Dehlidə keçirilməsinə razılıq verməyə məcbur qaldı. Beləliklə, 1960-cı ilin aprelində Cou Enlayın Dehliyə rəsmi səfəri baş tutdu və Çin-Hindistan danışıqları başladı.

"Böyük sıçrayış" siyasəti nəticəsində zəifləmiş Çin bu danışıqlara çox böyük ümidlər bəsləmişdir. Danışıqlarda Cou Enlayın qarşısına qoyulan əsas vəzifə Aksay-Çin və onun ərazisindən keçərək Sincyan-Uyğur vilayətini Tibetlə əlaqələndirən "G219" şose yolunun ÇXR-ə birləşdirilməsinə nail olmaq olmuşdu. Bunun əvəzində Çin hökuməti Şimal-Şərq Sərhəd Agentliyinin Hindistana güzəştə gedilməsinə hazır idi [15, s. 104]. Hindistan rəhbərliyi də bu danışıqlara ölkənin təhlükəsizliyinin təmin edilməsi baxımından çox böyük əhəmiyyət vermişdi. Danışıqlar zamanı C.Nehru Çinin Himalay dağlarında apardığı hərbi əməliyyatların Dehli şəhəri üçün ciddi təhlükə yaratdığı halda, Hindistan qoşunlarının sərhəd xətti boyunca yerləşdirilməsinin nə Çinin paytaxtı, nə də onun digər iri şəhərləri üçün heç bir potensial təhlükə yaratmadığını bildirdi [12, s. 113]. Bununla danışıqlar elə ilk gündən uğursuz başladı. Çin nümayəndə heyəti Çin ilə Hindistan arasında ərazi mübadiləsini: Aksay-Çinin ÇXR-ə, Şimal-Şərq Sərhəd Agentliyinin isə Hindistana verilməsini təklif etsə də, Hindistan bu təklifə qəti şəkildə etiraz etdi.

Hindistanın ərazi mübadiləsinə rədd cavab verməsi səbəbindən Çinin Xarici İşlər naziri Çen Yi görüşü tərk etdi [12, s. 114]. Beləliklə, danışıqlar aprelin 25-də tərəflər arasında sərhəd məsələsi üzrə heç bir nəticənin əldə edilməməsi ilə başa çatdı. Bunun ardınca 1961-ci ilin noyabr ayında Hindistan hərbi qüvvələri "irəliləmə siyasəti" çərçivəsində mübahisəli ərazilərə daxil olmağa və burada sərhəd postları tikməyə davam etdi. Nəticədə 1962-ci ildə Çin ilə Hindistan arasında sərhəd xətti boyunca yenidən silahlı toqquşmalar başladı.

**1962-ci il Çin-Hindistan müharibəsi**

1960-cı il danışıqlarının uğursuz başa çatması ilə Çin-Hindistan sərhəd xəttində gərginlik öz zirvə nöqtəsinə çatdı. Qəti mövqeyini nümayiş etdirmək üçün Hindistan sərhəd boyu ərazilərə öz qoşunlarını yerləşdirdi. Çin tarixçiləri tərəfindən Hindistan hökumətinin bu addımı onun "Tibeti öz nəzarəti altına alaraq, bufer zonaya çevrimək cəhdi" kimi qiymətləndirildi [15, s. 89]. Bu cür iddiaları irəli sürməklə Çin tarixçiləri XX əsrin 50-ci illərində Çin-Hindistan münasibətlərinin soyumasında və həmçinin 1959-cu il Tibet üsyanının baş verməsində Hindistanın səbəbkar olduğuna işarə etmişdilər. Hindistan hökumətini "ekspansionist" siyasət yürütməkdə ittiham etməklə Çin rəhbərliyi ona qarşı müharibəyə başlamaq üçün siyasi və nəzəri əsas yaratmış oldu.

Hindistan hərbi qüvvələrinin "irəliləmə siyasəti"nə cavab olaraq, Çin qoşunları Mak-Maqon xəttindən 20 kilometr şimalda yerləşdirildi. Bu zaman sərhəd xətti boyunca yerləşdirilən Çin Xalq Azadlıq Ordusu (ÇXAO) qüvvələrinə yalnız Mao Dzedunun şəxsən əmr verməsindən sonra atəş açmaq göstərişi verildi [15, s. 107]. Belə bir gərgin şəraitdə 1962-ci ilin fevralın 26-da Çin hökuməti Hindistana nota göndərdi. Bu notada Çin rəhbərliyi Hindistanı məsələni sülh yolu ilə həll etməyə və danışıqları bərpa etməyə çağırırdı. Notaya cavab olaraq, Hindistan hökuməti danışıqların yalnız Çin qüvvələrinin Aksay-Çini birmənalı şəkildə tərk etməsindən sonra mümkün olacağını bildirdi. Hindistanın danışıqları bərpa etməkdən imtina etməsi və "irəliləmə siyasəti"ni davam etməsinə cavab olaraq, 1962-cı ilin iyul ayında ÇXAO qüvvələri Şərq sərhəd sektorunda yerləşən Qalvan vadisi istiqamətində irəliləməyə başladı [11, s. 89].

Çin ilə Hindistan arasında mübahisənin sülh yolu ilə həll edilməsi istiqamətində son cəhd 1962-ci ilin iyul ayında, Laos məsələsi üzrə Cenevrədə keçirilən konfrans zamanı atıldı. Kofrans çərçivəsində Xarici İşlər naziri Çen Yi ilə Hindistanın Müdafiə naziri Krişna Menon arasında danışıqlar aparıldı. Danışıqlar zamanı Çen Yi Çin ilə Hindistan arasında heç bir sərhəd məsələsinin olmadığını və yeganə həlli lazım olan məsələnin Hindistan qoşunlarının Çinin ərazilərinə müdaxiləsinin dayandırılması olduğunu bildirdi. Buna cavab olaraq, Krişna Menon Hindistan qoşunlarının öz tarixi əraziləri daxilində hərəkət etdiyini bildirir və Çen Yinin sülh danışıqları təklifini rədd edir [15, s. 111].

Danışıqların uğursuzluğu və Hindistan tərəfinin qəti mövqeyi haqqında məlumatlar Pekinə çatdırıldıqdan sonra həm Mao Dzedun, həm də Cou Enlay Hindistan ilə müharibənin qaçılmaz olduğunu anlamağa başladılar. Çin arxiv sənədlərində Çen Yinin danışıqlar haqqında hesabatı Cou Enlaya çatdırdıqdan sonra onun üzünü Mao Dzeduna çevirərək, "*biz Hindistan ilə müharibə istəmirdik... lakin Nehru bütün yolları bağladı. Yeganə çıxış yolumuz müharibədir. Ən azından biz sona qədər sülh üzərində israr etdik*!" - cavab verməsi qeyd edilir [13]. Başqa sözlə, Mao Dzedun və Cou Enlay 1962-ci il hadisələrinin baş verməsində yeganə səbəbkar kimi Hindistanın ərazi məsələlərində güzəştə getməkdən imtina etməsini görürdülər. Artıq 1962-ci ilin ikinci yarısında Çin rəhbərliyi aktiv şəkildə Hindistanla müharibəyə hazırlaşmağa başladı.

1962-ci ilin 16-28 oktyabr tarixlərində "Kuba böhranı"nın baş verməsi ilə ÇXR üçün Hindistana qarşı müharibə başlamağa əlverişli şərait yarandı. ABŞ-nin əsas diqqətinin Karib dənizinə yönəlməsindən istifadə edən Çin rəhbərliyi Hindistana qarşı hərbi əməliyyatlara başladı. 1962-ci ilin oktyabrın 20-də Mao Dzedunun əmrinə uyğun olaraq Çin hərbi qüvvələri həm Qərb, həm də Şərq sərhəd sektorları istiqamətində hücuma keçdilər [11, s. 92]. Hücum nəticəsində Hindistan qoşunları tərəfindən "irəliləmə siyasəti" çərçivəsində Mak-Maqon xətti boyunca tikilən sərhəd postları darmadağın edildi. Çin qoşunları sərhəd xəttini 160 kilometr aşaraq Hindistanın içərilərinə doğru irəliləməyə başladı.

33 gün ərzində (20 oktyabr - 21 noyabr) davam edən hərbi əməliyyatlar nəticəsində ümumi sahəsi təqribən 38.000 kvadrat kilometr olan və Kəşmirin 20%-ni təşkil edən Aksay-Çin əraziləri Çin qoşunlarının tam nəzarəti altına keçdi [2, s. 124]. Qeyd edək ki, müharibə dövründə ABŞ-nin diqqəti tam olaraq Kubaya yönəlmişdi. Yalnız noyabrın 20-də Kuba böhranının həll edilməsi və blokadanın dayandırılmasından sonra ABŞ tərəfindən Hindistana dərhal 60 (bəzi mənbələrə görə 90) milyon dollar məbləğində yardım göndərildi [7, s. 323; 10, s. 93]. Paralel olaraq SSRİ-nin də Hindistanı diplomatik səviyyədə dəstəkləməsi və bununla müharibənin beynəlxalq miqyas ala bilməsi təhlükəsinin artması Çin rəhbərliyini noyabrın 21-də hərbi əməliyyatları dayandırmağa məcbur etdi.

1962-ci il müharibəsində məğlub olan Hindistan 7.000 nəfərə yaxın itki verdi [7, s. 323]. Bu müharibə nəticəsində hələ 1960-cı il danışıqları zamanı Cou Enlay tərəfindən təklif edilən ərazi mübadiləsi planı faktiki olaraq həyata keçirilmiş oldu. Yeganə fərq isə ondan ibarət idi ki, bu plan sülh yolu ilə deyil, müharibə yolu ilə və Çin hökümətinin Mak-Maqon xəttinin qanuniliyini tanımaqdan imtina etməsi şəraitində həyata keçirilmiş oldu.

**1963-cü il sərhəd razılaşması və Çin-Pakistan ittifaqının formalaşması**

1962-ci il müharibəsi ilə Çin-Hindistan "qardaşlığı"na son qoyuldu. Cənubi Asiyada Hindistanın qismində əsas müttəfiqini itirən ÇXR rəhbərliyi müharibədən sonra regionda öz nüfuzunu qorumaq üçün yeni müttəfiqin axtarışına çıxdı. Belə bir şəraitdə Pakistan rəhbərliyi Çinə meyl etməyə başladı. Bunun iki əsas səbəbi göstərilə bilər:

1. ABŞ və Qərb dövlətləri SEATO və CENTO çərçivəsində Pakistan ilə hərbi ittifaqa girmələrinə baxmayaraq, onlar Hindistan ilə mübarizədə Pakistana yetərincə dəstək göstərmir və əksinə Hindistan ilə ittifaq qurmağa fürsət axtarırdılar;
2. 1962-ci il müharibəsindən sonra Pakistan rəhbərliyi "düşmənimin düşməni mənim dostumdur" prinsipinə uyğun olaraq Çin ilə ittifaq qurmağa başladı. ÇXR ilə ittifaqa girməklə Pakistan Qərb dövlətlərindən ala bilmədiyi ölkənin təhlükəsizliyinin təmin edilməsinə çalışmışdı.

Qeyd edək ki, Çin ilə Pakistan arasında yaxınlaşma prosesi hələ 1962-ci il müharibəsi ərəfəsində, 1960-1961-ci illərdə başlamışdı. Belə ki, 1961-ci ilin yanvarında Çin rəhbərliyi Pakistan ilə sərhəd xəttinin demarkasiya edilməsi və bu məsələ üzrə danışıqların aparılmasına razılıq verdi. Səfirliklər səviyyəsində aparılan danışıqların nəticəsində 1962-ci ilin yanvarında Çin hökuməti üzərində mübahisəli ərazilər təsvir edilmiş xəritələrin istifadədən çıxarılmasına icazə verdi. 1962-ci ilin mayın 4-də isə Çin ilə Pakistan arasında sərhəd xəttinin demarkasiya edilməsi haqqında qərar və sərhəd məsələləri ilə bağlı kommünike qəbul edildi [1, s. 2].

Çin ilə Pakistan arasında dövlət səviyyəsində rəsmi danışıqlar 1962-ci ilin oktyabrında başladı. Danışıqların nəticəsində 1963-cü ilin martın 2-də Çin ilə Pakistan arasında sərhəd razılaşması imzalandı. Razılaşma Xarici İşlər nazirləri Çen Yi və Zülfüqar Əli Bhutto tərəfindən imzalandı. Tezliklə hər iki dövlətdə razılaşmanın şərtlərinə uyğun olan sərhəd xəttini əks elətdirən xəritələr dərc edilməyə başlandı (Şəkil 2). Razılaşmaya görə Çin bəzi sərhəd ərazilərini Pakistana güzəştə gedirdi. Bunun əvəzində Pakistan Kəşmirin şimalında yerləşən və ümumi sahəsi 5.200 kvadrat kilometr olan Şaksqam vadisini (Trans-Karakorum traktı) Çinə güzəştə gedir və Çinin Ladakh əraziləri (Aksay-Çin) üzərindəki suverenliyini tanıyırdı [1, s. 3]. Razılaşmanın 6-cı bəndinə uyğun olaraq Kəşmir probleminin həll edilməsindən sonra bu ərazilərin statusu yenidən müzakirə edilə bilərdi [6, s. 1].

Hindistan hökuməti tərəfindən ciddi narazılıqla qarşılanan bu razılaşma Çin-Pakistan ittifaqının əsasını qoydu. ÇXR-ə Kəşmirdəki mübahisəli əraziləri güzəştə getməklə Pakistan rəhbərliyi ölkənin Çinə verdiyi əhəmiyyəti nümayiş etməyə çalışmışdı. Bu yolla Pakistan hökuməti Çindən hərbi və iqtisadi yardım almağa ümid edirdi. Tezliklə Pakistan bu razılaşmanın "bəhrələrini" görməyə başladı. Belə ki, XX əsrin 60-cı illərinin əvvəllərində Çin Pakistana nəinki silah satır və sənayenin qurulması üçün kreditlər verirdi, o həmçinin Kəşmir məsələsindəki mövqeyini də rəsmi şəkildə dəyişmiş oldu. 1963-cü il sərhəd razılaşmasından sonra Çin Kəşmir problemində bitərəf mövqeyi tərk edərək Pakistanının məsələ ilə bağlı mövqeyini - Kəşmir müsəlmanlarının öz müqəddəratını təyin etmək hüququnu dəstəkləməyə başladı. Öz növbəsində Pakistan ÇXR-in BMT-yə üzv olaraq qəbul edilməsi və Tayvan adasının statusu kimi məsələlərdə Çin ilə həmrəylik nümayiş etməyə başladı. Bununla müasir Çin-Pakistan ittifaqı formalaşmış oldu.

Yenicə yaranmış Çin-Pakistan ittifaqı qarşısında ilk sınaq 1965-ci il Hindistan-Pakistan müharibəsi oldu. Müharibə ərəfəsində Çin Pakistana silah satışını artırdı və ölkədə yeni sənaye müəssisələrinin tikilməsi və köhnələrin bərpa edilməsinə yardım göstərdi. 1963-cü ilin sonlarında Çin Pakistana qaytarılması 30-40 il nəzərdə tutulan 60 milyon dollar məbləğində kiçik faizli kredit verdi [14, s. 94]. Kreditin qaytarılması Pakistan ərazilərində Çinə müxtəlif infrastrukturun - dəmir və şose yollarının tikilməsi hüququnun verilməsi şəklində keçirilməli idi. Məhz Çinin verdiyi kreditin köməyi ilə Pakistanda ağır sənayenin əsası qoyuldu və ölkə müəssisələrinin modernizasiyası həyata keçirildi. Bunun nəticəsində Pakistan Qərb dövlətləri ilə bir blokda olaraq Çindən iqtisadi yardım

alan ilk dövlət oldu. Çin Pakistanın silahlanmasında da çox böyük rola malik idi. Belə ki, 1961-1966-cı illərdə Çin tərəfindən Pakistana ümumi dəyəri 130 milyon dollar olan silah və hərbi texnika satılmışdı [9, s. 79].

Pakistanın Çinin yardımı ilə sürətlə silahlanması Hindistan tərəfindən narazılıqla qarşılandı. İki dövlət arasında gərginliyin artması 1965-ci ildə İkinci Hindistan-Pakistan müharibəsinin baş verməsi ilə nəticələndi. Tərəflər arasında aprel-may aylarında başlamış silahlı toqquşmalar artıq 1965-ci ilin avqust-sentyabr aylarında irimiqyaslı hərbi əməliyyatlara çevrildi. Özünün Pakistana dəstəyini nümayiş etmək və Hindistanı müharibədən çəkindirmək üçün 1965-ci ilin sentyabrın 8-də Çin hökuməti Hindistana nota göndərərək onu təcavüzkar siyasət yürütməkdə və həmçinin Çinin ərazilərinə müdaxilə etməkdə ittiham etdi [14, s. 97]. Bu notanı göndərməklə Çin müharibəyə qatılmağa və Hindistana qarşı ikinci cəbhənin yaradılmasına çalışırdı. Tezliklə Çin öz qoşunlarını Tibet-Sikkim sərhəd xəttində yerləşdirdi. Bu, Hindistanı Assam ilə əlaqələndirən Siliquri dəhlizi üçün ciddi təhlükə yaratdı. Buna baxmayaraq, ABŞ və SSRİ-nin məsələyə müdaxiləsindən sonra Çinin müharibəyə qatılması və ya daha geniş şəkildə müdaxilə etməsi qeyri-mümkün oldu. Məsələyə müdaxilə etmək imkanına malik olmadığına baxmayaraq Çin müharibə dövründə Pakistanı siyasi səviyyədə dəstəkləməyə davam etdi. Belə ki, Çinin əsas dövlət qəzeti olan Jenmin Jibao qəzetinin 1965-ci il sentyabr sayında, “*Çin xalqı Kəşmir əhalisinin öz müqəddəratını təyin etmək uğrunda apardığı mübarizəsini dəstəkləyir*” - başlıqlı məqalə dərc edildi [16, s. 85].

1966-cı ilin 10 yanvar tarixində SSRİ-nin vasitəçiliyi ilə Hindistan və Pakistanın arasında Daşkənd bəyannaməsi imzalandı. Bununla SSRİ Çinin Cənubi Asiyadakı imkanlarını məhdudlaşdırdı. SSRİ və ABŞ-nin tədricən Hindistana üstünlük vermələri nəticəsində 1966-1970-ci illərdə Pakistan öz rəqibindən geridə qalmamaq üçün Çin ilə əlaqələrini daha da genişləndirdi. Öz növbəsində 1965-ci il müharibəsində Pakistana yetərincə dəstək göstərə bilmədiyi üçün Çin hökuməti də “Kəşmir xalqına” olan dəstəyini artırdı. 1966-cı ildə Pakistan ilə Çin arasında “müdafiə haqqında” razılaşma imzalandı [7, s. 324]. Razılaşmaya görə Çin Pakistana iqtisadi və texniki yardım göstərməklə onun müdafiə sistemini möhkəmləndirməli idi. Bütövlükdə 1966-1971-ci illərdə Çin tərəfindən Pakistana ümumi dəyəri 133 milyon dollar olan silah və hərbi texnika satılmışdı [9, s. 86]. Pakistana siyasi səviyyədə dəstəyini davam edərək Çin hökuməti 1966-1970-ci illərdə Kəşmirdə plebisistin həyata keçirilməsini tələb etdi [5, s. 3]. Bütün bunların nəticəsində 60-cı illərin sonlarında Çin-Pakistan ittifaqı daha da möhkəmləndi.




**Şəkil 2.** 1962-1963-cü illərdə Çinin nəzarəti altına keçmiş Kəşmir əraziləri

**1970-1976-cı illərdə Çinin Kəşmir məsələsinə münasibəti**

70-ci illərin əvvəllərində Çin-Pakistan ittifaqı qarşısında yeni çətinliklər yarandı. Bu ilk olaraq 1971-ci il Hindistan-Pakistan müharibəsi ilə əlaqədar olmuşdu. Müharibə ərəfəsində Pakistanın silahlanmasına köməklik edən Çin 1970-ci ilin noyabrın 14-də onunla "iqtisadi və texniki əməkdaşlıq haqqında" razılaşma imzaladı [14, s. 98]. Bu razılaşma ilə Çin 1965-ci il müharibəsindən sonra Cənubi Asiyada itirdiyi mövqeyi bərpa etmiş və Pakistanın xarici siyasətində xüsusi mövqe əldə etmiş oldu.

1971-ci ilin əvvəllərində Hindistanın dəstəyi ilə Benqaliyada separatist hərəkat baş qaldırdı. Benqaliya məsələsində Pakistan ilə həmrəyliyini nümayiş etmək üçün 1971-ci ilin may ayında Çin tərəfindən Pakistana 20 milyon dollar məbləğində iqtisadi yardım verildi [14]. Buna baxmayaraq, 1971-ci ildə ÇXR-in BMT-yə üzv qəbul edilməsi məsələsi müzakirə edildiyinə görə Çin rəhbərliyi Cənubi Asiyada baş verən proseslərə o qədər də müdaxilə etmək istəmirdi. Digər tərəfdən bu zaman Çin ilə ABŞ arasında danışıqların Pakistanın vasitəçiliyi ilə aparıldığına görə ÇXR bilavasitə Pakistandan "asılı" idi. Lakin bu asılılığa Henri Kissincerin 1971-ci ildə ÇXR-ə səfəri ilə son qoyuldu. Bundan sonra Çin ABŞ ilə Pakistan vasitəsilə deyil, birbaşa əlaqələr saxlamağa başladı.

Benqaliya məsələsinin gərginləşməsi nəticəsində 1971-ci ilin dekabrında Üçüncü Hindistan-Pakistan müharibəsi başladı. Hindistanın Qərbi Pakistana və Azad Kəşmirə planlaşdırdığı hücumun qarşısını almaq üçün ABŞ-nin 7-ci donanması Benqal körfəzində lövbər saldı. Müharibə dövründə ÇXR rəhbərliyi Hindistanı Pakistana qarşı təcavüzdə ittiham etməklə yanaşı, Benqaliya ərazilərində yaradılmış Banqladeş dövlətini "Mancou-quo dövlətinin replikasiyası" olaraq bəyan etdi [10, s. 95]. Başqa sözlə, Çin hökuməti Hindistanın işğalçı dövlət, Banqladeşin isə Hindistan tərəfindən yaradılan "oyuncaq dövlət" olduğuna işarə edirdi. Bu cür bəyanatlarla çıxış etməsinə baxmayaraq, 1965-ci il müharibəsində olduğu kimi 1971-ci il hərbi əməliyyatları zamanı da Çin hökümətinin Pakistana dəstəyi yalnız siyasi və mənəvi yardım ilə məhdudlaşdı. Buna səbəb isə 1971-ci ilin avqustun 9-da SSRİ ilə Hindistan arasında imzalanan ittifaq müqaviləsi olmuşdu. Müqaviləyə görə Hindistana qarşı üçüncü tərəfin müdaxiləsi baş verdiyi halda SSRİ ona tam dəstək göstərməli idi.

SSRİ-nin Cənubi Asiyadakı nüfuzuna etiraz olaraq, Çin rəhbərliyi 1971-ci ilin dekabrın 16-da Sovet hökümətini Hindistanın ekspansionist siyasətini dəstəkləməkdə və şirnikləşdirməkdə ittiham etdi [9, s. 79]. Çinin Şərqi Pakistanda partizan müharibəsinə başlamaq cəhdlərinə baxmayaraq, 1971-ci ilin dekabrın 17-də Pakistan ilə Hindistan arasında atəşkəs elan edildi. İki həftə davam etmiş hərbi əməliyyatların nəticəsində Pakistan məğlub olaraq Benqaliya əraziləri üzərində nəzarəti itirdi.

Müharibənin gedişində Pakistan öz hərbi qüvvə və texnikasının böyük bir hissəsini itirdi. Buna görə də, hərbi əməliyyatların başa çatmasından və atəşkəsin elan edilməsindən dərhal sonra Çin Pakistana hərbi dəstəyini artırdı və ölkənin hərbi potensialının bərpa edilməsinə yardım göstərməyə başladı. Hindistan Müdafiə İnstitutunun iddialarına görə 1971-1972-ci illərdə Çin tərəfindən Pakistana pulsuz olaraq 225 ədəd "T-59" tankı, 1 ədəd "II-28" bombardmançısı və 4 ədəd "MIG-19" qırıcısı verilmişdi. Bunun nəticəsində artıq 1982-ci ildə Pakistanın ordusunda mövcud olan hərbi texnikanın 75%-ni Çindən alınan texnika təşkil etmişdi. [9, s. 80; 12, s. 100-101].

Müharibənin başa çatmasından sonra Hindistan ilə Pakistan arasında gərginliyin azaldılması üçün 1972-ci ildə Simla razılaşması imzalandı. Razılaşmada əksini tapan əsas məsələ Hindistan ilə Pakistan arasında münaqişənin danışıqlar yolu prinsipi ilə həll edilməsi olmuşdu. Hindistan ilə Pakistan arasında sülh razılaşmasının imzalanmasını müsbət qarşılayan Çin rəhbərliyi Kəşmir məsələsinin Simla sənədlərinə uyğun şəkildə danışıqlar yolu ilə həll edilməsini dəstəklədi. Bütövlükdə isə 1971-1976-cı illərdə Çinin Kəşmir məsələsində mövqeyi dəyişilməz olaraq qaldı. Yalnız 1976-cı ildə Mao Dzedun və Cou Enlayın vəfat etməsi və "Mədəni inqilabın" başa çatması ilə Çinin xarici siyasətində radikal dəyişikliklər baş verdi. Den Syaopinin başçılığı altında hakimiyyətə gələn yeni ÇXR hököməti bütün qonşu dövlətlər, o cümlədən Hindistan ilə normal münasibətlərin qurulmasını

dəstəklədi. Bunun nəticəsində Çin Kəşmir məsələsində yenidən bitərəf mövqe tutmağa başladı. Çinin Kəşmir problemində bitərəf mövqe tutmasına bir neçə səbəb təsir göstərmişdi:

1. Çinin Pakistan ilə əməkdaşlığını genişləndirməsi SSRİ-Hindistan ittifaqının daha da möhkəmlənməsi üçün zəmin yarada bilərdi;
2. “Kəşmir xalqının” öz müqəddəratını təyin etmək hüququnu dəstəkləmə kursu Tibet, Sincyan, Daxili Monqolustan, Honkonq, Makau və Tayvana da eyni hüququn verilməsi məsələsini ortaya qoya və Çinin parçalanması təhlükəsini yarada bilərdi.

1976-cı ildən sonra Çin hökuməti istər Kəşmir məsələsi, istərsə də digər problemlərdə bitərəf mövqe tutmaqla öz qonşuları ilə dinc münasibətlər qurmağa başladı. Buna baxmayaraq, ÇXR-in Kəşmir məsələsində bitərəf mövqe tutması onun Pakistan ilə ittifaqına son qoyması demək deyildi. Belə ki, Çin-Pakistan ittifaqı 1976-cı ildən sonra da sabit şəkildə inkişaf etməyə davam etdi.

## YEKUN NƏTİCƏ

Gördüyümüz kimi, 1962-1976-cı illərdə Çin-Hindistan-Pakistan üçbucağı daxilindəki münasibətlər birbaşa və ya dolayı yolla Kəşmir məsələsi ilə əlaqəli olmuş və onunla tənzim edilmişdir. İlkin illərdə Hindistan ilə əlaqələrinin dostluq səviyyəsində inkişaf etməsi səbəbindən məsələdə bitərəf mövqe tutan Çin 1962-ci il müharibəsindən sonra Pakistana üstünlük verməyə başladı. Beləliklə, XX əsrin ikinci yarısında Çinin Kəşmir problemindəki mövqeyi daha çox onun Pakistan və Hindistan ilə olan münasibətlərindən və bu münasibətlərin hansı vəziyyətdə olmasından asılı olmuşdu. Qeyd edilənlərə əsaslanaraq Çinin Kəşmir məsələsində mövqeyini üç dövrə bölmək olar: 1) 1950-ci illəri əhatə edən “bitərəflik”; 2) 1962-1976-cı illəri əhatə edən “Kəşmir xalqının öz müqəddəratını təyin etmək” hüququnun dəstəklənilməsi; 3) 1976-cı ildən sonra “bitərəfliyə qayıdış”.

**MİNNƏTDARLIQ**
Bu tədqiqat işinin hazırlanmasında böyük rolu olan Bakı Dövlət Universitetinin Tarix fakültəsinin “Asiya və Afrika ölkələri tarixi” kafedrasının t.e.d., dosent Aida xanım Bağırovaya minnətdarlığımı bildirirəm.

## ƏDƏBİYYAT

1. Afridi, M.K. Pak-China Boundary Agreement: Factors and Indian Reactions / M.K. Afridi, A.Z. Khan // - International Journal of Social Science Studies, - 2016, 4 (2), - p. 1-5.
2. Ahmadov, S. The 1962 Sino-Indian war and its impact on chinese foreign policy // - Scientific Researches XXI International Scientific Conference Proceedings, - Baku: - 2024, - p. 126-129.
3. Baghirova, A.R. Iraq’s Foreign Policy in the Context of International Relations (1970-2010s): / Abstract of the dis. for the degree of Doctor of Sciences. / - Baku: 2021. - 55 p.
4. Bağırova, A.R. Çinin Yaxın Şərq siyasətində İraq istiqaməti // - Bakı: Sosial Elmlər, - 2021. No.1, - s. 9-17.
5. Bhatt, P. Revisiting China’s Kashmir Policy // - ORF Issue Brief, - 2019, No.326, - p. 1-16.
6. Chang, J. China’s Kashmir Policies and Crisis Management in South Asia / - United States Institute of Peace, - 2017, - 4 p.
7. Dr. Jamshad, U. Chinese Stance on Kashmir Dispute: An Over View / U. Jamshad, M. Abdullah, A. Jahangir // - Journal of Development and Social Sciences, - 2022, 3 (4), - p. 322-329.
8. Əhmədov, S. Tibet probleminin tarixi və onun Çin-Hindistan münasibətlərinə təsiri // - Karabağ Zaferi: Türk Birliğine Giden Yoluluslararası Sempozyumubildiri Kitabı, - Eskishehir: - 8 noyabr, - 2024, - s. 269-275.
9. Farooq, M. Pakistani-Chinese Relations: An Historical Analysis of the Role of China in the Indo-Pakistani War of 1971 // - Pakistaniaat: A Journal of Pakistan Studies, - 2010, 2 (3), - p. 76-91.

10. Horimoto, T. India's Wars: The Indo-Pakistani Wars and the India-China Border Conflict // - International Forum on War History: Proceedings, - 2015, - p. 91-100.

11. Khatri, S. Events Leading to the Sino-Indian Conflict of 1962 / S. Khatri. - New Delhi: Institute for Defence Studies and Analyses, - 2017. - 174 p.

12. Lorenz, L. Sino-Indian Relations, 1954-1962 // - Eurasia Border Review, No.3 (Special Issue), - 2012, - p. 93-119.

13. Maxwell, N. China's India war: How the Chinese saw the 1962 conflict: [Elektron resurs] / East Asia Forum. - August 2, 2011. URL: https://eastasiaforum.org/2011/08/02/china-s-india-war-how-the-chinese-saw-the-1962-conflict/

14. Ondris, P. Sino-Pakistani Relations from 1960 to 1974 // - SOS, - 2015, 14 (1), - p. 77-105.

15. Ross, R.S. China's Decision for War with China in 1962. New Directions in the Study of China's Foreign Policy / R.S. Ross, A.I. Johnston // - Stanford University Press, - 2006, - p. 86-130.

16. Shoaib, M. China's Policy towards Kashmir Dispute / M. Shoaib, S. Shafiq // - Pakistan Perspectives, - 2015, 20 (1), - p. 83-95.

## THE KASHMIR CONFLICT IN THE CONTEXT OF THE CHINA-INDIA-PAKISTAN TRIANGLE (1962-1976)

**S.N. Ahmadov**

This article examines the role and significance of the Kashmir conflict in the Sino-Indian-Pakistani triangular relations between 1962 and 1976. In August 1947, British India underwent partition, granting its princely states the right to decide whether to accede to India or Pakistan. Unlike other princely states, Kashmir faced unique challenges in making this decision. Despite having a predominantly Muslim population, the princely state of Kashmir had been under Indian rule since the late 19th century. This situation exacerbated religious tensions within the region, further intensified by policies of religious discrimination during British colonial rule. By the early 20th century, these tensions culminated in increased unrest, eventually leading to the Indo-Pakistani war over Kashmir in October 1947.

Initially, the Kashmir issue was a bilateral dispute confined to India and Pakistan. However, by the late 1950s, it evolved into a geopolitical concern, attracting the involvement of external powers such as China, the United States, and the Soviet Union. Among these, the People's Republic of China (PRC) displayed heightened interest in South Asia and began actively engaging with the Kashmir dispute. To consolidate its regional influence, China began the secret construction of a highway through the Aksai Chin region in northeastern Kashmir. This development provoked India and escalated into the Sino-Indian War of 1962. Following the war, China not only secured control over northeastern Kashmir but also established a strategic partnership with Pakistan. These developments intensified regional tensions throughout the 1960s and 1970s, solidifying the PRC's position as a key actor in the Kashmir conflict.

**Keywords:** *China, India, Pakistan, Kashmir, South Asia, Aksai Chin, foreign policy*

# КАШМИРСКАЯ ПРОБЛЕМА В КОНТЕКСТЕ ТРЕУГОЛЬНИКА КИТАЙ-ИНДИЯ-ПАКИСТАН (1962-1976 ГГ.)

**С.Н. Ахмедов**

В этой статье рассматривается роль и значение вопроса Кашмира в китайско-индийско-пакистанских трехсторонних отношениях в период с 1962 по 1976 год. В августе 1947 года Британская Индия подверглась разделу, предоставив своим княжествам право решать, присоединяться ли к Индии или Пакистану. В отличие от других княжеств, Кашмир столкнулся с уникальными проблемами при принятии этого решения. Несмотря на преимущественно мусульманское население, княжество Кашмир находилось под индийским правлением с конца 19 века. Эта ситуация обострила религиозную напряженность в регионе, еще больше усилившуюся политикой религиозной дискриминации во время британского колониального правления. К началу 20 века эта напряженность достигла кульминации в усилении беспорядков, в конечном итоге приведших к индо-пакистанской войне за Кашмир в октябре 1947 года.

Изначально вопрос Кашмира был двусторонним спором, ограниченным Индией и Пакистаном. Однако к концу 1950-х годов он превратился в геополитическую проблему, привлекая внимание внешних держав, таких как Китай, США и Советский Союз. Среди них Китайская Народная Республика (КНР) проявила повышенный интерес к Южной Азии и начала активно участвовать в споре о Кашмире. Чтобы укрепить свое региональное влияние, Китай начал секретное строительство шоссе через регион Аксайчин на северо-востоке Кашмира. Это развитие событий спровоцировало Индию и переросло в китайско-индийскую войну 1962 года. После войны Китай не только обеспечил контроль над северо-восточным Кашмиром, но и установил стратегическое партнерство с Пакистаном. Эти события усилили региональную напряженность на протяжении 1960-х и 1970-х годов, укрепив позицию КНР как ключевого игрока в конфликте в Кашмире.

**Ключевые слова:** *Китай, Индия, Пакистан, Кашмир, Южная Азия, Аксайчин, внешняя политика*